# Son bir ildə Naftalana 40 min turist gəlmişdir

**Son illər ölkəmizdə reallaşan qlobal layihələr, həyata keçirilən beynəlxalq tədbirlər, sabitlik və əmin-amanlıq respublikamızın digər bölgələrində olduğu kimi, Naftalanda da turizmin inkişafına geniş yol açmışdır. Nəticədə təkcə keçən il istər yerli, istərsə də xarici turistlərin sayında nəzərəçarpacaq dərəcədə artım qeydə alınmışdır.**



Son bir ildə Naftalan 40 mindən artıq turisti qəbul etmişdir. Onların yarıdan çoxu 61 ölkə vətəndaşı olmuşdur. Əsasən Rusiyadan, Qazaxıstandan, İsraildən, Ukraynadan, Belarusdan, Türkiyədən, Səudiyyə Ərəbistanından, Küveytdən, Litvadan, Birləşmiş Ərəb Əmirliklərindən, Tacikistandan, Qətərdən, İrandan, Çindən, Estoniyadan, Almaniyadan, Gürcüstandan, Qırğızıstandan, Kanadadan, hətta Amerika Birləşmiş Ştatlarından və digər ölkələrdən olan turistlər öz sağlamlıqlarını Naftalanda bərpa etmişlər. Turistlərin qəbulunda isə heç bir problem yaşanmamışdır. Belə ki, hazırda burada 11 turizm obyekti fəaliyyət göstərir. Eyni vaxtda burada 2500 turistin dincəlməsi üçün yüksək şərait yaradılmışdır. Lakin mövcud müalicə ocaqlarının sayı heç də tələbatı ödəmir. Odur ki, hazırda burada bir neçə sağlamlıq mərkəzinin tikintisi də aparılır. Onlar istifadəyə verildikdən sonra Naftalanın bir gündə 4000 nəfərə yaxın turisti qəbul etməyə imkanı olacaqdır. Şəhərin Nizami Gəncəvi küçəsində yerləşən 4 mərtəbəli 288 yerlik "Gold Naftalan" sağlamlıq mərkəzində hazırda son tamamlama işləri görülür.

Həmin küçədə daha bir sanatoriya kompleksinin inşası da sürətlə davam etdirilir. 192 yerlik olacaq bu kompleksdə idman zalı, masaj və həkim otaqları yaradılacaqdır.

3-cü sanatoriya isə şəhərin R.Zülfiqarov küçəsində tikilir. Yeni sağlamlıq kompleksi beşmərtəbəli olacaqdır. 176 yerlik kompleksdə poliklinika korpusu, texniki və yardımçı, eləcə də müalicə otaqları fəaliyyət göstərəcəkdir.

Şəhərə gəlmək istəyən bütün turistlərə diqqət və qayğı ilə yanaşılır. Xüsusilə xarici qonaqların Naftalana gəlməsini asanlaşdırmaq məqsədilə bu yaxınlarda Goran-Naftalan marşrutu üzrə yeni avtobus xətti açılmış və həmin marşrutda işləmək üçün "Toyota" markalı sərnişin avtobusu ayrılmışdır. Bundan başqa, Bakı-Gəncə-Bakı istiqamətində fəaliyyət göstərən sürət qatarının Goran stansiyasında dayanması da turistlərin məmnunluğuna səbəb olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 9 fevral.- S.5.